Bu tədbirlər çərçivəsində Gəncə şəhərində stolüstü tennis üzrə zona yarışı keçirilib.

Gəncə Olimpiya İdman Kompleksində keçirilən məktəblilər arasında stolüstü tennis üzrə zona yarışında Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Goranboy, Bərdə rayonlarının, eləcə də Gəncə şəhərinin oğlan və qızlardan ibarət komandaları mübarizə aparıb. Tədbirin bədii hissəsində idmançılar, rəqs qrupları nümünəvi çıxışlar edib, musiqili konsert təşkil olunub.

Komanda hesabında qızlar arasında 1-ci və 3-cü yerləri Gəncə şəhərinin, 2-ci yeri Samux rayonunun, oğlanlar arasında isə 1-ci yeri Gəncə şəhərinin, 2-ci yeri Samux, 3-cü yeri Daşkəsən rayonunun komandaları tutub.

Daha bir idman yarışı "Təhsil" Respublika İdman Mərkəzinin Gəncə filialının *bazasında* baş tutub. Atletika idman növü üzrə zona yarışında Tovuz, Şəmkir, Qazax, Gədəbəy, Goranboy, Göygöl, Samux, Bərdə, Daşkəsən rayonlarını və Gəncə şəhərini təmsil edən 100 nəfərdən artıq idmançı qüvvəsini sınayıb.

Komanda hesabında 1-ci yeri Gəncə şəhərinin, 2-ci yeri Bərdə, 3-cü yeri isə Şəmkir rayonunun komandaları tutub.

Yarışların açılış mərasimlərində Təhsil Nazirliyinin, yerli icra orqanlarının və idman ictimaiyyətinin nümayəndələri iştirak edib.

Qaliblərə Təhsil Nazirliyinin diplom və medalları təqdim olunub.